**"Ekolizinq" Məhdud Məsuliyyətli Cəmiyyəti**

*Hər birinin nominal dəyəri 1 000 (bir min) ABŞ dolları olan 500 (beş yüz) ədəd faizli, təmin edilməmiş, sənədsiz, adlı istiqrazların*

# BAZA EMİSSİYA PROSPEKTİ

Baza Emissiya Prospektinin tərtib edilməsində iştirak edən şəxslər və Baza Emissiya Prospektində təqdim edilmiş məlumatlara dair

**BƏYANAT**

Biz, aşağıda imza edənlər,

1. Bu baza emissiya prospektini tərtib etməzdən öncə "Emissiya prospekti və informasiya memorandumuna dair tələblər haqqında" Qaydalar ilə tanış olduğumuzu təsdiq edirik.
2. "Ekolizinq" Məhdud Məsuliyyətli Cəmiyyəti hər birinin nominal dəyəri 1000 (bir min) ABŞ dolları olan, 500 (beş yüz) ədəd faizli, təmin edilməmiş, sənədsiz, adlı istiqrazlarının baza emissiya prospektinə daxil edilən məlumatların həqiqi faktlar əsasında olduğu, heç bir faktın gizlədilmədiyi və bunun üçün bütün lazımi tədbirlərin görüldüyü barədə təminat veririk və məsuliyyəti öz üzərimizə götürürük.

**"Ekolizinq" Məhdud Məsuliyyətli Cəmiyyəti**
**Direktoru: Pərvin Bədirxanov Etibar oğlu** ____________

**"Ekolizinq" Məhdud Məsuliyyətli Cəmiyyəti**
**Baş mühasibi:**
**Xanməmmədova Leyla Yuriyevna**____________

AZƏRBAYCAN RESPUBLİKASI • Məhdud Məsuliyyətli Cəmiyyəti • ekolizinq • Limited Liability Company • AZERBAIJAN REPUBLIC

# MÜNDƏRİCAT


XÜLASƏ. .... 4

Xəbərdarlıq .... 4

Emitent haqqında məlumat. .... 4

Qiymətli kağızlar haqqında məlumat. .... 6

Risk faktorları .... 8

Təklif .... 8

Emitentin auditorları barədə məlumat .... 10

Seçilmiş maliyyə məlumat .... 11

Emitent barədə məlumat. .... 11

Emitentin biznesinin icmalı .... 12

Digər təşkilatlarda iştirak. .... 13

Tendensiyalar barədə məlumat. .... 13

Gəlir proqnozu .... 13

Emitentin idarəetmə və nəzarət orqanları .... 13

İdarə heyətinin işgüzar praktikası .... 14

Emitentin nizamnamə kapitalında mühüm iştirak payına sahib olan şəxslər. .... 14

Emitentin maliyyə məlumatları .... 15

Emitent haqqında əlavə məlumatlar. .... 21

İstiqrazlar barədə tələb olunan ümumi məlumat. .... 22

İstiqrazlar barədə məlumat .... 23

## XÜLASƏ

### 1.Xəbərdarlıq.

1.1. Bu sənəd baza emissiya prospektinin giriş hissəsidir;

1.2. İstiqrazlara investisiya etmək barədə hər hansı bir qərar investorun baza emissiya prospektini oxuduqdan sonra həyata keçirilimәlidir;

1.3. Baza emissiya prospektində olan məlumatların yanlış, qeyri-dəqiq, ziddiyyətli olduğu vəya İstiqrazlara investisiya edib-etməmək barədə qərar verən investorlara kömək etmək məqsədilə əsas informasiyanın verilmədiyi zaman baza emissiya prospektini hazırlamış şəxslər mülki məsuliyyət daşıyırlar.

### 2.Emitent haqqında məlumat

2.1. **Emitentin tam adı:** "Ekolizinq" Məhdud Məsuliyyətli Cəmiyyəti.

2.2. **Emitentin qısaldılmış adı**: "Ekolizinq" MMC.

2.3. **Emitentin dövlət qeydiyyat nömrəsi və tarixi**: 1303596351, 11.03.2014-cü il.

2.4. **Emitentin olduğu yer və təşkilati hüquqi forması, emitentin qeydiyyatda olduğu ölkə**: AZ1122, Bakı şəhəri, Yasamal rayonu, Xarici Dairəvi Yol, ev.4 Məhdud Məsuliyyətli Cəmiyyəti.

2.5. **Emitentə və onun əməliyyat apardığı sahələrə təsir edən məlum tendensiyaların təsviri:**

"Ekolizinq" MMC əsasən maliyyə lizinq bazarında fəaliyyət göstərir.

Hazırki dövrdə lizinq təşkilatlarına əsas təsir edən tendensiyalar valyuta riskləri və portfel keyfiyyəti "Ekolizinq" MMC -də qənaətbəxş idarə olunur. Belə ki təşkilatın portfelində prospektin hazırlandığı tarixə valyuta riski yaradacaq kreditlər yoxdur və kredit portfeli milli valyutada formalaşdırılmışdır.

"Ekolizinq" MMC, strateji olaraq, kredit portfelinin diversifikasiya tədbirlərini həyata keçirir. Diversifikasiya tədbirləri partnyor, region, sektor və digər meyarlar üzrə həyata keçirilir ki, bu da kredit portfelinin daha keyfiyyətli və risksiz idarə olunması üçün önəmlidir.

2.6. **Emitentin digər hüquqi şəxslərdə mövqeyinin qısa təsviri. Emitentin qrupda olan şəxslərdən asılı olduğu təqdirdə bu barədə qeyd:** Emitentin digər hüquqi şəxslərdə mövqeyi mövcud deyil.

2.7. **Gəlir proqnozunun mövcud olduğu zaman bu barədə qeyd:** Gəlir proqnozu mövcud deyil.

2.8. **Audit edilmiş maliyyə məlumatlarına dair auditorun rəyinin qısa təsviri**:

Kənar audit rəyinə əsasən, "Ekolizinq" MMC -nin maliyyə hesabatları bütün əhəmiyyətli aspektlər baxımından təşkilatın il sonuna maliyyə vəziyyətini və həmin il üzrə maliyyə nəticələrini və pul vəsaitlərinin hərəkətini Beynəlxalq Maliyyə Hesabatı Standartlarına uyğun olaraq düzgün əks etdirir.

2.9. **Son üç maliyyə ili ərzində hər maliyyə ili üzrə seçilmiş maliyyə malumatı əsasında emitentin maliyyə durumunun əsas göstəriciləri. Aralıq dövrlər üçün seçilmiş maliyyə məlumatı verildiyi zaman əvvəlki maliyyə ilində eyni**

**dövr barədə müqayisəli məlumatlar verilməlidir. Son dərc olunmuş audit edilmiş maliyyə hesabatlarından bəri emitentin fəaliyyətində dəyişikliyin olub-olmaması barədə məlumat. Aralıq dövrlər üçün seçilmiş maliyyə məlumatı verildiyi zaman əvvəlki maliyyə ilində eyni dövr barədə müqayisəli məlumatlar verilməlidir:**

**(Azərbaycan manatı ilə)**

| Göstəricilər | 2022-ci il üzrə Audit olunmuş | 2021- ci il üzrə Audit olunmuş | 2020- ci il üzrə Audit olunmuş |
|---|---|---|---|
| **Xalis mənfəət** | 80 455.66 | 178 956.18 | 209 066.09 |
| **Cəmi öhdəliklər** | 2 162 070.04 | 2 693 758.52 | 3 962 586.06 |
| **Cəmi kapital** | 1 998 785.64 | 1 939 853.54 | 1 826 913.50 |
| **Cəmi aktivlər** | 4 160 855.68 | 4 633 612.06 | 5 789 499.54 |
| **Kredit portfeli** | 2 156 070.04 | 2 693 758.52 | 3 962 586.06 |
| **Pul vəsaitləri** | 70 266.19 | 52 725.08 | 99 380.02 |

2023 il maliyyə hesabatları auditor tərəfindən təsdiq olunmadığı üçün, yalnız ilk 6 ay üzrə maliyyə göstəriciləri müqayisəli verilir. Son dərc olunmuş audit edilmiş maliyyə hesabatlarından bəri emitentin fəaliyyətində dəyişiklik olmamışdır.

**(Azərbaycan manatı ilə)**

| Göstəricilər | 2022-ci ilin ilk 6 ayı üzrə | 2023-cü ilin ilk 6 ayı üzrə |
|---|---|---|
| **Xalis mənfəət** | 40 135.12 | 69 971.28 |
| **Cəmi öhdəliklər** | 2 066 469.18 | 2 125 092.46 |
| **Cəmi kapital** | 2 058 854.14 | 2 068 756.92 |
| **Cəmi aktivlər** | 4 125 323.32 | 4 193 849.38 |
| **Kredit portfeli** | 2 497 910.80 | 2 283 005.90 |
| **Pul vəsaitləri** | 10 566.12 | 45 874.03 |

**2.10. Emitentin ödəmə qabiliyyətinə təsir edən ən son hadisələr:**

Emitentin öhdəliklərin yerinə yetirilməsi üçün likvid aktivlərdən istifadə edir. Aktivlərin likvidliyi – borc alan şəxs tərəfindən öhdəliklərin ödənilməsi və ya reallaşması vasitəsilə aktivlərin itkisiz nağd pula transformasiyası qabiliyyətidir. Bu

zaman mümkün itkilərin dərəcəsi aktivlərin riskliliyi ilə şərtləşdirilir. Emitentin aktivləri likvidlik dərəcəsinə görə bir neçə qrupa bölünür:

- hüquqi və fiziki şəxslərə təqdim olunan maliyyə linizqləri;
- satış üçün nəzərdə tutulan korporativ qiymətli kağızlar təşkil edir.

Aktivlər Emitentin uzunmüddətli yatırımları və investisiyalarını, o cümlədən də lizinq əməliyyatlarını, investisiya ilə bağlı qiymətli kağızları əhatə edir. Öhdəliklərin likvidliyi onların ödənilmə tezliyini, cəlb olunan vəsaitlərin ümumi həcminin müəyyən səviyyədə qorunması zamanı emitent üçün bərpa olunma dərəcəsini xarakterizə edir. Təşkilatın ödəmə qabiliyyətinə təsir edən əsas faktor olan kredit portfelinin keyfiyyəti qənaətbəxşdir. Aşağıdakı cədvəldə 30 gündən çox gecikmiş portfelin kredit portfelinə nisbəti göstəricisinin illər üzrə dinamikası göstərilmişdir:

| **Göstəricilər** | 2020 | 2021 | 2022 |
|---|---|---|---|
| PAR>30 (məbləğ) | 756 620.58 | 502 858.20 | 427 720.67 |
| PAR>30/Portfel (%) | 19% | 18% | 19% |

**2.11. Emitentin əsas fəaliyyətlərinin təsviri:**

Cəmiyyət Nizamnaməsi və qanunvericiliklə müəyyən edilmiş qaydada aşağıda qeyd edilən fəaliyyət növləri ilə məşğul ola bilər .

- Lizinq fəaliyyəti və onunla bağlı bütün əməliyyatların həyata keçirilməsi;
- Konsaltinq, maliyyə müşavirliyi, maliyyə agenti xidmətləri;
- Daşınmaz əmlakın alqı-satqısı, kirarəsi, icarəsi və lizinqi. Avtomobil və kənd təsərrüfatı texnikalarının ehtiyyat hissələrinin və avadanlıqlarının idxalı, ixracı, alqı-satqısı, yük, sərnişin daşıma və minik avtomobillərinin, kənd təsərrüfatı texnikalarının və avadanlıqların idxalı, ixracı, alqı-satqısı, kirayəsi və lizinq fəaliyyəti, minik avtomobillərinin, avadanlıqların, icarəsi və lizinqi, xarici avtomaşınların və mexanizmlərinalqı-satqısı,avtomobillərin icarəsi və lizinqi, yük avtomobillərinin icarəsi və lizinqi, kommersiya alqı-satqı, istehsalat və təchizetmə, servis,nümayəndəlik, dilerlik, distributorluq, idxal və ixraz və ixrac, ticarət və sair fəaliyyət və xidmətlərin göstərilməsi;
- Cəmiyyətin fəaliyyət növləri Nizamnaməsində göstərilən fəaliyyət növləri ilə məhdudlaşmır və AR qanunvericiliyi ilə qadağan olunmayan fəaliyyət növləri ilə, o cümlədən xüsusi icazə alınmasını tələb edən müəyyən fəaliyyət növləri ilə yalnız icazəni (lisenziyanı) aldıqdan sonra məşğul ola bilər.

**2.12. Mühüm iştirak payına sahib olan şəxslər tərəfindən emitentə nəzarətin xusisiyyətləri:**

"Ekolizinq" MMC -nin nizamnamə kapitalının 100% 1 fiziki şəxsə məxsusdur. Cəmiyyətin ali idarəetmə orqanı onun İştirakçılarının ümumi yığıncağıdır. Ümumi Yığıncaq Emitentin fəaliyyəti ilə bağlı istənilən məsələni müzakirə edə bilər. Ümumi yığıncaq növbəti və növbədənkənar ola bilər. Ümumi Yığıncaq nizamnamə kapitalında ən azı 75 % (yetmiş beş) paya malik olan iştirakçıları iştirak etdikdə səlahiyyətli sayılır.

## 3.Qiymətli kağızlar haqqında məlumat

**3.1. İstiqrazların növü:** faizli, təmin edilməmiş, sənədsiz, adlı istiqrazlar;

**3.2. İstiqrazların valyutası:** ABŞ dolları;

3.3. **Tədavül müddəti:** 36 ay;

3.4. **İstiqrazlarla təsbit olunan məhdudiyyətlərin təsviri:** İstiqrazlarla təsbit olunan məhdudiyyətlər mövcud deyil.

3.5. **İstiqrazların mülkiyyətçisinin təmsilçisinin adı:** İstiqrazların mülkiyyətçisinin təmsilçisi mövcud deyil.

3.6. **İstiqrazlarla təsbit olunmuş hüquqların təsviri:**

- İstiqrazların tədavül müddəti bitdiyi vaxtda İstiqrazın nominal dəyərini emitentdən almaq;
- İstiqrazın nominal dəyərindən illik 10 (on) faiz olmaqla, istiqrazların tədavül müddəti ərzində faiz gəliri almaq;
- Emintentin ləğvi, yaxud emitentin kreditorlarının tələblərinin ödənilməsinin təminatına real təhlükəyə səbəb olan onun yenidən təşkili barədə qərər qəbul edildikdə, habelə Emitent müflis elan olunduqda İstiqrazların nominal dəyərinin və həmin anadək hesablanmış, lakin, ödənilməmiş faizlərin vaxtından əvvəl ödənilməsini Emitentdən tələb etmək;
- Azərbaycan Respublikasının qanunvericiliyində nəzərdə tutulmuş digər hüquqlar.

3.7. **İstiqrazların faiz dərəcəsi. İstiqrazların faizlərinin və dəyərinin ödənilmə tarixi və müddəti:** İstiqrazların 1-ci buraxılışı üzrə illik faiz dərəcəsi - 10 (on) faiz, 2-ci buraxılışı üzrə illik faiz dərəcəsi 10 (on) faiz təşkil edir. İstiqrazların nominal dəyərinin ödənilmə müddəti buraxılışda olan ilk istiqrazın yerləşdirildiyi tarixdən etibarən 36 ay. İstiqrazlar üzrə hesablanmış faizlər, buraxılışda olan ilk istiqrazın yerləşdirildiyi tarixdən etibarən hər 30 gündən bir ödəniləcəkdir;

3.8. **İstiqrazların geri satın alınma şərtləri:** Tədavül müddəti ərzində istiqrazlar emitent ilə investor arasında qarşılıqlı razılıq əsasında geri satın alına bilər.

3.9. **Gəlirin qısa formada hesablama metodunu göstərməklə gəlir göstəricisi:**

İstiqrazların 1 və 2-ci buraxılışları üzrə faiz gəlirinin məbləği aşağıda göstərilən düsturla müəyyən edilir:

edilir:TF=(N*D*G/360)/100 Burada,

TF- Bir istiqraz üzrə toplanmış faizlər;

N- Bir istiqrazın nominal dəyəri -1000 (bir min) ABŞ dolları;

D- İstiqrazların illik gəlirlik dərəcəsi- 10 (on)%;

G- istiqrazların faiz ödəniş dövrünün müddəti -30 gün;

3.10. **İstiqrazların tənzimlənən bazarda ticarətə buraxılması barədə emitent tərəfindən müraciətin edilməsinin nəzərdə tutulub-tutulmaması barədə məlumat. Belə bir müraciətin edilməsi nəzərdə tutulduğu halda istiqrazların ticarətə buraxılacağı tənzimlənən bazar barədə məlumat və ticarətə buraxılmanın şərtləri:** İstiqrazların kütləvi təklif üsulu ilə ilkin yerləşdirilməsi Baza Emissiya Prospekti dövlət qeydiyyatına alınmasından sonra "Bakı Fond Birjası" QSC-nin ticarət platforması vasitəsi ilə həyata keçiriləcəkdir. İstiqrazların "Bakı Fond Birjası" QSC-nin listinqinə daxil edilməsi ilə bağlı müraciət istiqrazın buraxılışı dövlət qeydiyyatına alındıqdan sonra ediləcəkdir.

Tənzimlənən bazarda ticarətə buraxılma BFB tərəfindən təsdiq edilmiş "Bakı fond birjası" QSC-də qiymətli kağızların listinqə daxil olunması, listinqdə saxlanılması, delistinqi və ticarətinin təşkili Qaydaları" na əsasən həyata keçirilir. BFB 2000-ci ildə qapalı səhmdar cəmiyyəti formasında təsis edilmiş və 21 iyul 2000-ci il tarixli "fond birjası fəaliyyəti" -ni həyata keçirməyə icazə verən 5 saylı müddətsiz lisenziya əsasında Azərbaycan Respublikası ərazisində qiymətli kağızlar və törəmə maliyyə alətləri üzrə kütləvi ticarətin peşəkar təşkilatçısı kimi fəaliyyət göstərir. BFB aşağıdakı bazarların ticarətini təşkil edir:

- dövlət qiymətli kağızları bazarının;
- korporativ qiymətli kağızlar bazarının;
- törəmə maliyyə alətləri bazarının.

Yerləşdiyi ünvan: AZ1141 Bakı şəhəri, Yasamal rayonu, Həsən Bəy Zərdabi küçəsi 2A (Şokolad Tower)
Elektron poçt ünvanı: info@bse.az
İnternet şəbəkəsində rəsmi səhifəsi: www.bse.azTel: (+99412) 539 72 49
BFB-nin fəaliyyəti Azərbaycan Respublikasının Mülki Məcəlləsi, "Qiymətli kağızlar bazarı haqqında" Azərbaycan Respublikasının Qanunu, Azərbaycan Respublikasının digər hüquqi aktları və BFB-nin nizamnaməsi və daxili Qaydaları ilə tənzimlənir.

## 4.Risk faktorları

**4.1. Təklif olunan istiqrazlarla əlaqəli bazar risklərini qiymətləndirmək üçünzəruri olan risk faktorları:**

- Faiz riski- faiz dərəcələrinin mənfi dəyişməsindən yaranan itki riski;
- Hesablaşma və kontragent riski- hesablaşmanın vaxtından gec aparılması və aparılmasından əvvəl kontragentin öhdəliklərini icra edə bilməməsi səbəbindən meydana gələn itki riskləri;
- İnflyasiya riski- pulun alıcılıq qabiliyyətinin aşağı düşməsi ilə bağlı risk;
- Əməliyyat riski- daxili proseslər, sistem pozğunluqları, insan faktoru və xarici hadisələrdən meydana gələn itki riskləri;
- Kredit riski- borcalanın öhdəliklərini yerinə yetirə bilməməsindən meydana gələn itki riskləri;
- Likvidlik riski- müəyyən anda aktivlərin satışı və ya alışı ilə bağlı çətinliklərin yaranması mümkünlüyü;
- Təbii risk- insan fəaliyyətindən asılı olmayan risk (təbii fəlakət, fors-major və s.);
- Valyuta riski- valyuta kurslarının əlverişsiz şəkildə dəyişməsindən yaranan itki riski;

**4.2. İstiqraz emissiyası zamanı emitentin öhdəliklərini yerinə yetirmək qabiliyyətinə təsir edə bilən risk faktorları:**

- Kəskin devalivasiyanın olması - müştərilərimizin öhdəliklərin kəskin artması və ödəmə qabiliyyətinin kəskin zəyiflənməsi, maliyyə bazarında durğunluğun yaşanması və pul axınının azalması əsas risk faktorlarındandır.
- Likvidlik riski - planlaşdırılmış və gözlənilməyən öhdəliklərin vaxtında və effektiv yerinə yetirilə bilməməsi, əlavə likvid vəsaitin əldə edilməsi, həmçinin Cəmiyyətin aktivlərinin minimal zərərlə dərhal satılması üzrə imkanların azalması riskidir.
- Kapital riski: Qiymətli kağızlar portfelinin keyfiyyətinin pisləşməsi nəticəsində yaranan riskdir. Bu risk qiymətli kağızlar bazarında spekulyasiya məqsədləri üçün istifadə edilən kapitalın derivativ vasitələrinə təsir göstərir.

## 5.Təklif

**5.1. Təklifin səbəbi mənfəətin əldə edilməsi və ya bəzi risklərin sığortalanmasından fərqli olduğu təqdirdə emissiyanın səbəbi:** Lizinq məhsullarına tələbin artması fonunda emitent istiqraz buraxmaqla daha sərfəli şərtlərlə vəsait cəlb edib və əhalinin maliyyə lizinq tələblərini təmin etməklə öz mövqeyini qoruyub artırmağı nəzərdə tutub. Həmçinin təklifin səbəbi mənfəətin əldə edilməsidir;

**5.2. Təklifin şərtlərinin təsviri:**

İstiqrazlar "Bakı Fond Birjası" QSC-nin ticarət platformasında rəqabətli hərrac üsulu ilə yerləşdiriləcəkdir. Hərrac zamanı ilk növbədə investorlar tərəfindən

təqdim edilən ən yüksək qiymətli sifarişlər təmin ediləcəkdir. Qiymət bərabər olduqda sifarişlərin həcminə uyğun olaraq mütənasib qaydada təmin ediləcəkdir. İstiqrazların nominal dəyərindən 1000 (bir min) ABŞ dollarından aşağı qiymətə verilmiş sifarişlər təmin edilməyəcəkdir. İnvestorlar hərrac günündən gec olmayaraq, istiqrazların alınması üçün pul vəsaitlərini emitent tərəfindən "Azər Türk Bank" ASC-də açılmış müvəqqəti cari hesaba köçürməlidirlər. Hərracın keçirilməsi tarixi Emitent tərəfindən müəyyən edilir və hərracın keçirilməsinə ən azı 2 iş günü qalmış BFB- nin internet saytında (www.bfb.az) və ya Emitentin internet saytında (www.ekolizinq.az) açıqlanır.

Təklifin və yerləşdirmənin başlanma və başa çatma tarixləri:

**Yerləşdirmənin başlanma tarixi:** yeni emissiya ediləcək istiqrazlar Azərbaycan Respublikasının Mərkəzi Bankı tərəfindən dövlət qeydiyyatına alındıqdan sonra yerləşdirmənin başlanmasına ən azı 2 iş günü qalmış hərracın baş tutacağı tarix BFB-nin saytında investorlara açıqlanacaqdır.

**Yerləşdirmənin başa çatma tarixi:** Hərrac qaydalarına uyğun olaraq BFB və anderrayter tərəfindən elan edilən müvafiq hərracın baş tutduğu gün.

**5.3. Emissiyada iştirak edən şəxslərin maraqları, o cümlədən maraqların toqquşması, barədə ətraflı məlumat:**

***"Bakı Fond Birjası" Qapalı Səhmdar Cəmiyyəti***

Emissiya prosesində iştirak edən "Bakı Fond Birjası" QSC (bundan sonra-BFB) yeni emissiya edilmiş istiqrazların listinqə daxil edilməsi, hərrac vasitəsilə istiqrazların ilkin yerləşdirilməsi, həmçinin təkrar bazarda alqı-satqısı üçün peşəkar kütləvi ticarəti təşkil edir.

BFB 2000-ci ildə qapalı səhmdar cəmiyyəti formasında təsis edilmiş və 21 iyul 2000-ci il tarixli "fond birjası fəaliyyəti" -ni həyata keçirməyə icazə verən 5 saylı müddətsiz lisenziya əsasında Azərbaycan Respublikası ərazisində qiymətli kağızlar və törəmə maliyyə alətləri üzrə kütləvi ticarətin peşəkar təşkilatçısı kimi fəaliyyət göstərir. BFB aşağıdakı bazarların ticarətini təşkil edir:

- dövlət qiymətli kağızları bazarının;
- korporativ qiymətli kağızlar bazarının;
- törəmə maliyyə alətləri bazarının.

BFB-nin fəaliyyəti AR Mülki Məcəlləsi, Qiymətli Kağızlar Bazarı haqqında AR Qanunu, Azərbaycan Respublikasının digər hüquqi-normativ aktları və BFB-nin nizamnaməsi və daxili Qaydaları ilə tənzimlənir.

***Milli Depozit Mərkəzi***

Milli Depozit Mərkəzi (bundan sonra-MDM) Qiymətli Kağızlar Bazarı haqqında Qanunun 16.1-ci maddəsinə əsasən təsis olunan qeyri-kommersiya hüquqi şəxsdir. MDM Azərbaycan Respublikasının ərazisində depozitar sisteminin işini təşkil edən və əlaqələndirən Mərkəzi Depozitardır.

Emissiya Prossesində MDM-in vəzifələri aşağıdakılardır:

qiymətli kağızların saxlanması və uçotunun aparılması;

qiymətli kağız mülkiyyətçilərinin hesablarının uçotunun aparılması və "Qiymətli kağızlar bazarı haqqında" Qanunun 17.1-ci maddəsində göstərilmiş digər vəzifələr.

***Anderrayter***

"İNVEST-AZ İnvestisiya Şirkəti" QSC 09 yanvar 2016-cı il tarixində Azərbaycan Respublikası İqtisadiyyat və Sənaye Nazirliyi tərəfindən verilmiş 087986 saylı

lisenziya əsasında qiymətli kağızlar bazarında əsas və yardımçı investisiya xidmətlərini göstərən peşəkar investisiya şirkətidir. Bu emissiyanın anderrayteri kimi (öhdəlik götürmədən) Emitentin bütün satış sifarişlərini hərrac zamanı Birjaya təqdim edir, BFB-nin ticarət sistemi vasitəsi ilə istiqrazların yerləşdirilməsi xidmətlərini göstərir.

Bu emissiyada iştirak edən üçüncü şəxslər arasında emitentlə aidiyyatı şəxs yoxdur. Mərkəzi Depozitar emissiyanı qeydiyyata aldığı zaman komissiya əldə edir. Fond birjası və anderrayter isə istiqrazlar yerləşdirildikcə emitentdən və invetorlardan komissiya əldə edir və bir başa maddi maraqları vardır. Emissiyada iştirak edən şəxslər arasında maraqlar toqquşmasına yol açan hallar mövcud deyil.

**5.4. İstiqraz alıcısının ödəməli olduğu vergi və xərclərin məbləği.**

**Vergilər:** İstiqrazlar üzrə faiz ödənişi zamanı qanunvericilikdə müəyyən edilmiş qaydada ödəmə mənbəyindən vergi tutulur. Həmçinin, AR Vergi Məcəlləsinin 102.1.22-2-ci maddəsinə əsasən fiziki şəxslər 2023-cü il fevralın 1-dən etibarən 5 (beş) il müddətində kütləvi təklif edilmiş və tənzimlənən bazarda ticarətə buraxılmış səhmlər və istiqrazlar üzrə ödənilən dividend, diskont (istiqrazların nominalından aşağı yerləşdirilməsi nəticəsində yaranmış fərq) və faiz gəlirləri gəlir vergisindən azad olunmuşdur. İstiqrazların dövriyyədə olduğu müddətdə vergi qanunvericiliyi dəyişərsə, tətbiq ediləcək vergilər barədə məlumat emitent və ya anderrayter tərəfindən kütləvi informasiya vasitələri ilə investorların diqqətinə çatdırılacaqdır.

İstiqrazlar üzrə hüquqi şəxslərə ödəniləcək faizlər isə onlar tərəfindən vergitutma bazası hesablanarkən gəlir olaraq nəzərə alınaraq ümumi qaydada mənfəət vergisinə cəlb olunacaqdır.

**Xərclər:**

- əqdin məbləğinin 0,02%-i həcmində BFB komissiyası;
- investisiya şirkətinin komisyon haqqı: investisiya şirkəti ilə investor arasında bağlanılmış müqavilədən asılı olaraq dəyişir;
- istiqraz alıcısının depo hesabı olmadığı təqdirdə "depo" hesab açılması üçün 10 manat (bu məbləğin 5 manatı MDM-in komissiyası, digər 5 manat isə investisiya şirkətinin komissiyası təşkil edir;
- hesablaşma agentində olan bank hesabına pul köçürülməsi zamanı bank-köçürmə xərci (bankdan asılı olaraq dəyişir).

## 6. İstiqrazların emitenti barədə tələb olunan məlumatlar:

**6.1. Emitentin auditorları barədə məlumat:**

**Son üç maliyyə ili ərzində emitentin auditorlarının adı, ünvanları və hərhansı təşkilatda üzvlüyü barədə məlumat:**

| Maliyyə ili | Auditorun adı | Ünvanı | Audit təşkilatında üzvlüyü barədə məlumat |
|---|---|---|---|
| 2020 | "RF TAX Consulting 2015" MMC | Bakı şəhəri, Yasamal r-nu, Zərdabi-89, mənzil-6 | 13/11/2020-ci il tarixli ,AT/219 nömrəli icazə |
| 2021 | "RF TAX Consulting 2015" MMC | Bakı şəhəri, Yasamal r-nu, Zərdabi-89, mənzil-6 | 13/11/2020-ci il tarixli ,AT/219 nömrəli icazə |

| | | | |
|---|---|---|---|
| 2022 | "RF TAX Consulting 2015" MMC | Bakı şəhəri, Yasamal r-nu, Zərdabi-89, mənzil-6 | 13/11/2020-ci il tarixli ,AT/219 nömrəli icazə |

6.2. **Son üç maliyyə ili ərzində auditorların əvəzlənməsi və ya dəyişdirilməsi barədə səbəbləri göstərilməklə məlumat –** Son üç maliyyə ili ərzində emitentin auditorlarının dəyişdirilməsi olmamışdır.

## 7.Seçilmiş maliyyə məlumatı

7.1. **Son üç maliyyə ili ərzində (hər maliyyə ili üzrə ayrı-ayrılıqda göstərməklə) seçilmiş maliyyə məlumatı əsasında emitentin maliyyə durumunun əsas göstəriciləri. Aralıq dövrlər üçün seçilmiş maliyyə məlumatı verildikdə əvvəlki maliyyə ilində eyni dövr barədə müqayisəli məlumatlar verilməlidir.**

**(Azərbaycan manatı ilə)**

| **Göstəricilər** | **2022-ci il üzrə Audit olunmuş** | **2021- ci il üzrə Audit olunmuş** | **2020- ci il üzrə Audit olunmuş** |
|---|---|---|---|
| **Xalis mənfəət** | 80 455.66 | 178 956.18 | 209 066.09 |
| **Cəmi öhdəliklər** | 2 162 070.04 | 2 693 758.52 | 3 962 586.06 |
| **Cəmi kapital** | 1 998 785.64 | 1 939 853.54 | 1 826 913.50 |
| **Cəmi aktivlər** | 4 160 855.68 | 4 633 612.06 | 5 789 499.54 |
| **Kredit portfeli** | 2 156 070.04 | 2 693 758.52 | 3 962 586.06 |
| **Pul vəsaitləri** | 70 266.19 | 52 725.08 | 99 380.02 |

## 8. Emitent barədə məlumat

8.1. **Emitentin tam adı, təşkilati-hüquqi forması:** "Ekolizinq" MMC.

8.2. **Emitentin dövlət qeydiyyatının rekvizitləri:** VÖEN - 1303596351, 11.03.2014-cü il.

8.3. **Emitentin təşkilati-hüquqi forması dəyişdirildikdə, onun bütün əvvəlki adları, təşkilati-hüquqi formaları, o cümlədən dəyişikliklərin dövlət qeydiyyatı tarixi:** "Ekolizinq" MMC 11.03.2014-cü il tarixində 1303596351 qeydiyyat nömrəsilə dövlət qeydiyyatına alınmışdır. Təşkilati-hüquqi formasında dəyişiklik olmamışdır.

8.4. **Emitentin olduğu yer, poçt ünvanı, elektron poçt ünvanı, emitentin internet səhifəsinin ünvanı və əlaqə telefonları:**

Hüquqi ünvanı- AZ1122, Bakı şəhəri, Yasamal rayonu, Xarici Dairəvi Yol, ev.4
Faktiki ünvanı: AZ1025, Bakı şəhəri, Xətai rayonu, Babək prospekti 31;
Telefon: 994 (12) 310 12 45
Rəsmi sayt https://ekolizinq.az/
Elektron poçt ünvanı: p.badirxanov@ekolizinq.az

8.5. **Maliyyə hesabatlarının son dərc olunma tarixindən etibarən əsas investisiyaların təsviri (məbləği göstərilməklə):** Maliyyə hesabatlarının son dərc olunma tarixindən etibarən investisiya olmamışdır.

8.6. **İdarəetmə orqanlarının emitentin gələcək investisiyaları ilə bağlı öhdəlikləri və həmin öhdəlikləri yerinə yetirmək üçün lazım olan maliyyə vəsaiti mənbələri ilə bağlı məlumat:** İdarəetmə orqanlarının emitentin gələcək investisiyaları ilə bağlı öhdəlikləri mövcud deyil.

8.7. **Emitentin qiymətli kağzlarının ticarətə buraxıldığı tənzimlənən bazarlar barədə məlumat:**

Emissiya ediləcək istiqrazlar "Bakı Fond Birjası" (BFB) Qapalı Səhmdar Cəmiyyətində yerləşdiriləcəkdir. BFB 2000-ci ildə qapalı səhmdar cəmiyyəti formasında təsis edilmiş və 21 iyul 2000-ci il tarixli "fond birjası fəaliyyəti" -ni həyata keçirməyə icazə verən 5 saylı müddətsiz lisenziya əsasında Azərbaycan Respublikası ərazisində qiymətli kağızlar və törəmə maliyyə alətləri üzrə kütləvi ticarətin peşəkar təşkilatçısı kimi fəaliyyət göstərir. BFB aşağıdakı bazarların ticarətini təşkil edir:

- dövlət qiymətli kağızları bazarının;
- korporativ qiymətli kağızlar bazarının;
- törəmə maliyyə alətləri bazarının.

Yerləşdiyi ünvan: AZ1141 Bakı şəhəri, Yasamal rayonu, Həsən Bəy Zərdabi küçəsi 2A (Şokolad Tower)

Elektron poçt ünvanı: info@bse.az

İnternet şəbəkəsində rəsmi səhifəsi: www.bse.az

Tel: (+99412) 539 72 49

BFB-nin fəaliyyəti Azərbaycan Respublikasının Mülki Məcəlləsi, "Qiymətli kağızlarbazarı haqqında" Azərbaycan Respublikasının Qanunu, Azərbaycan Respublikasının digər hüquqi aktları və BFB-nin nizamnaməsi və daxili Qaydaları ilə tənzimlənir.

## 9. Emitentin biznesinin icmalı

9.1. **Emitentin satılmış məhsullarının və ya göstərilmiş xidmətlərinin əsas kateqoriyalarını göstərərək emitentin əsas fəaliyyətinin təsviri:**

Cəmiyyət Nizamnaməsi və qanunvericiliklə müəyyən edilmiş qaydada aşağıda qeyd edilən fəaliyyət növləri ilə məşğul ola bilər.

- Lizinq fəaliyyəti və onunla bağlı bütün əməliyyatların həyata keçirilməsi;
- Konsaltinq, maliyyə müşavirliyi, maliyyə agenti xidmətləri;
- Daşınmaz əmlakın alqı-satqısı, kirarəsi, icarəsi və lizinqi. Avtomobil və kənd təsərrüfatı texnikalarının ehtiyyat hissələrinin və avadanlıqlarının idxalı, ixracı, alqı-satqısı, yük, sərnişin daşıma və minik avtomobillərinin, kənd təsərrüfatı texnikalarının və avadanlıqların idxalı, ixracı, alqı-satqısı, kirayəsi və lizinq fəaliyyəti, minik avtomobillərinin, avadanlıqların, icarəsi və lizinqi, xarici avtomaşınların və mexanizmlərinalqı-satqısı,avtomobillərin icarəsi və lizinqi, yük avtomobillərinin icarəsi və lizinqi, kommersiya alqı-satqı, istehsalat və təchizetmə, servis,nümayəndəlik, dilerlik, distributorluq, idxal və ixraz və ixrac, ticarət və sair fəaliyyət və xidmətlərin göstərilməsi;
- Cəmiyyətin fəaliyyət növləri Nizamnaməsində göstərilən fəaliyyət növləri ilə məhdudlaşmır və AR qanunvericiliyi ilə qadağan olunmayan fəaliyyət növləri ilə, o cümlədən xüsusi icazə alınmasını tələb edən müəyyən fəaliyyət növləri ilə yalnız icazəni (lisenziyanı) aldıqdan sonra məşğul ola bilər.

9.2. **Təqdim olunmuş yeni məhsullar və xidmətlər barədə məlumat, onların inkişaf statusu:** yeni xidmətlər təqdim olunmamışdır.

9.3. **Emitentin rəqabət apardığı əsas bazarların təsviri:**

Cəmiyyət lizinq xidmətləri bazarında rəqabət aparır. Cəmiyyətin fəaliyyət növlərinə lizinq və onunla bağlı bütün əməliyyatların həyata keçirilməsi aiddir. Bundan əlavə daşınmaz əmlakın alqı-satqısı, kirayəsi, icarəsi və lizinqi, avtomobil və kənd təsərrüfatı texnikalarının ehtiyyat hissələrinin , avadanlıqların idxalı, ixracı alqı-satqısi, yük, sərnişin daşıma və minik avtomobillərinin, kənd təsərrüfatı texnikalarının və avadanlıqlarının idxalı, ixracı, alqı-satqısı, kirayə və lizinq fəaliyyəti, minik avtomobillərinin, avadanlıqların icarəsi və lizinqi, xarici avtomaşınların və mexanizmlərinin alqı-satqısı, avtomobillərin və yüngül avtofurqonların icarəsi və lizinqi, yük avtomobillərinin icarəsi və lizinqi, kommersiya və s. Faəliyyət və xidmətlərin göstərilməsi;

Konsaltinq, maliyyə müşavirliyi, maliyyə agenti xidmətləri;

Qanunla qadağan edilməyən digər fəaliyyət növləri ilə məşğul ola bilər. Emitent maliyyə lizingi bazarında rəqabət aparır. Maliyyə lizinqin xidmətində əmlakın uzun müddətli icarəyə verilməsi və müqavilə müddəti sonunda bu əmlakın lizinqalanın mülkiyyətinə verilməsi nəzərdə tutulur. Bu növ lizinq xidməti Azərbaycanda geniş tətbiq olunur və lisenziyalaşdırılan fəaliyyət növlərinə aid edilməmişdir. Maliyyə lizinqi bazarında nəzarətedici orqan olmadığından və müvafiq statistik məlumatların dərc edilmədiyindən bazarın ümumi həcmi haqqında məlumat mövcud deyildir. Banklar və bank olmayan kredit təşkilatları da bu fəaliyyət növü ilə məşğul olma hüququna malikdirlər və rəqabətin iştirakçılarıdırlar.

**9.4. Emitentin rəqabət mövqeyinə dair bəyanatı olduğu halda onun əsaslandırılması-** Emitentin rəqabət mövqeyinə dair bəyanatı mövcud deyil.

## 10. Digər təşkilatlarda iştirak

**10.1. Emitentin digər hüquqi şəxslərdə iştirakının qısa təsviri:** Emitentin digər hüquqi şəxslərdə iştirakı mövcud deyil.

**10.2. Emitentin daxil olduğu qruplardan asılılığı və bu asılılığın səbəbi:**
Emitent heç bir qrupa daxil deyil. Fəaliyyətini müstəqil şəkildə həyata keçirir.

## 11. Tendensiyalar barədə məlumat

**11.1. Audit edilmiş maliyyə hesabatlarının son dərc olunma tarixindən etibarən emitentin emissiya prospektində mənfi dəyişiklik olmadığı barədə məlumat:** Göstərilən tarixdən etibarən müəssisənin fəaliyyətində baza emissiya prospektinə mənfi təsir edəcək hər hansı bir hal baş verməmişdir.

**11.2. Emitentin fəaliyyətinə cari maliyyə ili dövründə təsir etmə ehtimalı olanməlum tendensiyalar, qeyri-müəyyənliklər, öhdəliklər və ya hadisələr barədə məlumat:**
Emitent ticarət ilində mənfəətliyini artırmaq üçün və cəmləşmə risklərini minimumlaşdırmaq məqsədilə yeni partnyorlarla əməkdaşlıq edir. Ölkədə pul-kredit siyasətinin sabitləşməsi lizinq təşkilatlarının səmərəli olmasına şərait yaradıb və hal hazırda bazarda qeyri-müəyyənlik mövcud deyil. Emitentin öhdəlikləri cari fəaliyyət əsasında yaranan öhdəliklərdir və onlar vaxtında icra edilməkdədir.

**12. Gəlir proqnozu-** gəlir proqnozu mövcud deyil;

## 13. Emitentin idarəetmə və nəzarət orqanları

**13.1. Emitentin idarəetmə və nəzarət orqanlarının hər bir üzvü barədə aşağıdakı məlumatlar:**

**Təsisçilərin Ümumi Yığıncağı**

| Təsisçinin adı | Vətəndaşlığı | payların sayı | Nizamnamə Kapitalında faiz nisbəti |
|---|---|---|---|
| Rəsulov Elnur Qənimət oğlu | Azərbaycan | 100 ədəd | 100 % |

**Emitentin İcraedici orqanı barədə məlumat:** Cəmiyyətin fəaliyyətinə cari rəhbərlik Cəmiyyətin icraedici orqanı və qanuni təmsilçilik funksiyasına malik olan Direktor tərəfindən həyata keçirilir.

| Adı, soyadı, atasının adı | Vəzifəsi | Funksiyaları |
|---|---|---|
| Pərvin Bədirxanov Etibar oğlu | Direktor | Təşkilatın qanuni təmsilçisi funksiyasını icra edir; Təşkilatın adından qanunla qadağan edilməyən əqd və sazişlər bağlayır. |

**13.2. Xidməti vəzifələri ilə şəxsi maraqları arasında ziddiyyət yarana biləcəyi hallarda maraqların toqquşması barədə hesabat:** Azərbaycan Respublikası Mülki Məcəlləsinin 107-10.5-ci maddəsinə əsasən cəmiyyətin icra orqanı üzvlərinin şəxsi marağı ilə cəmiyyətin maraqları arasında ziddiyyətlərə gətirib çıxara bilən, habelə Mülki Məcəllənin 49-1.6-cı maddəsində nəzərdə tutulmuş hallarda cəmiyyətin icra orqanının rəhbəri və ya digər üzvləri müvafiq məlumatı cəmiyyətin direktorlar şurasına (müşahidə şurasına), o olmadıqda, iştirakçıların ümumi yığıncağına yazılı şəkildə təqdim etməlidirlər.

## 14. İdarə heyətinin işgüzar praktikası

**14.1. Audit və mükafatlandırma (olduqda) komitələrinin üzvlərinin adları və komitələrin əsasnamələri ilə onlara verilmiş səlahiyyət əsasında gördükləri işlərin icmalı:** Cəmiyyətin Audit və mükafatlandırma komitəsi mövcud deyil.

**14.2. Emitentin qeydiyyatda olduğu ölkədə mövcud olan korporativ idarəetmə standartlarına uyğun olub-olmadığı barədə hesabat. Uyğun olmadığı halda bu barədə hesabat:** Emitentin idarəetmə forması Mülki Məcəllə və ona müvafiq hazırlanmış nizamnaməsi əsasında müəyyən edilir və tənzimlənir.

## 15. Emitentin nizamnamə kapitalında mühüm iştirak payına sahib olan şəxslər

**15.1. Emitentin nizamnamə kapitalında 10 faizdən artıq iştirak payına sahib olan şəxslərin adları, vətəndaşlığı və onlara məxsus payların sayı və nizamnamə kapitalında olan faiz nisbəti:**

| Adı | Vətəndaşlığı | Payların sayı | Nizamnamə Kpitalında faiz nisbəti |
|---|---|---|---|
| Rəsulov Elnur Qənimət oğlu | Azərbaycan | 100 ədəd | 100% |

**15.2. Mühüm iştirak payına sahib olan şəxslər tərəfindən emitentə nəzarətin xüsusiyyəti və bu nəzarətin sui-istifadə edilmədiyinə əmin olmaq üçün lazımi tədbirlərin təsviri:** Mühüm iştirak payının sahibi Emitentə nəzarət emitentin

nizamnaməsinə və AR Mülki Məcəlləsinə uyğun olaraq həyata keçirir. Cəmiyyətin ali idarəetmə orqanı onun İştirakçılarının Ümumi Yığıncağıdır. Ümumi Yığıncaq Emitentin fəaliyyəti ilə bağlı istənilən məsələni müzakirə edə bilər. İştirakçılarının Ümumi Yığıncaq növbəti və növbədənkənar keçirilə bilər. Ümumi Yığıncaq nizamnaməkapitalında ən azı 75 % (yetmiş beş) paya malik olan İştirakçılar iştirak etdikdə səlahiyyətli sayılır. Emitent maliyyə lizingi bazarında fəaliyyət göstərir. Maliyyə lizinqi bazarında nəzarətedici orqan yoxdur. Hüquqi şəxs adından çıxış edən şəxs, o cümlədən hüquqi şəxsin idarəetmə və ya nəzarət orqanları AR Mülki Məcəlləsinə uyğun olaraq məsuliyyət daşıyır. Bundan əlavə Emitent tərəfindən maliyyə hesabatları müstəqil auditor tərəfindən audit olunur.

15.3. **Mühüm iştirak payına sahib olan şəxslərin dəyişməsinə gətirilə bilən və emitentə məlum olan əməliyyatlar barədə məlumat:** Əməliyyat mövcud deyil.

## 16. Emitentin maliyyə məlumatları

16.1. **Emitentin başa çatmış son üç maliyyə ili üzrə audit edilmiş maliyyə hesabatları:** Emitentin maliyyə hesabatları MHBS-ə uyğun olaraq hazırlanmışdır.

**MALİYYƏ VƏZİYYƏTİ HAQQINDA HESABAT**

**31 DEKABR 2020, 2021, 2022-Cİ İL BAŞA ÇATMIŞ İL ÜZRƏ AUDİT EDİLMİŞ**

**BALANS HESABATI**

**(Azərbaycan manatı ilə)**

| | 2020 il | 2021 il | 2022 il |
|---|---|---|---|
| **AKTİVLƏR** | | | |
| **Uzunmüddətli aktivlər** | | | |
| Torpaq,tikili və avadanlıqlar | 687,776.18 | 688,996.36 | 640,766.61 |
| Nəqliyyat vasitələri | 96,384.71 | 72,288.53 | 54,503.97 |
| Digər əsas vəsaitlər | 16,977.87 | 14,252.54 | 14,544.60 |
| İştirakpayı metodu ilə investisiyalar | | | |
| Qeyri maddi aktivlər | 9,365.60 | 12,719.34 | 11,447.40 |
| | | | |
| **Qısamüddətli aktivlər** | | | |
| Ehtiyyatlar | | | |
| Qısamüddətli debitor borcları | | | |
| Dövlət büdcəsinə (vergilər üzrə) | 6,929.54 | 24,245.79 | 64,690.16 |
| Sair debitor borcları | 4,034,245.62 | 2,867,667.12 | 2,201,103.20 |
| Pul vəsaitləri və onların ekvivavlentləri | 99,380.02 | 52,725.08 | 70,266.19 |
| Səhmlər üzrə qoyuluş | 639,600.00 | 622,500.00 | 583,500.00 |
| Gələcək dövrün xərcləri | | | |
| Sair qısamüddətli aktivlər | | | |
| Digər aktivlər | 198,840.00 | 278,217.30 | 520,033.55 |
| **CƏMİ AKTİVLƏR** | **5,789,499.54** | **4,633,612.06** | **4,160,855.68** |
| | | | |
| **KAPİTAL** | | | |
| Ödənilmiş nominal (Nizamnamə)kapitalı | 10,000.00 | 10,000.00 | 10,000.00 |
| Xalis mənfəət | 1,816,913.48 | 1,929,853.54 | 1,988,785.64 |
| Bölüşdürülməmiş mənfəət (ödənilməmiş zərər) | | | |
| **CƏMİ KAPİTAL** | **1,826,913.48** | **1,939,853.54** | **1,998,785.64** |
| | | | |

| | | | |
|---|---|---|---|
| **Qısamüddətli öhdəliklər** | | | |
| Qısamüddətli kreditor borclarıə | | | |
| Bank kreditləri | 3,962,586.06 | 2,693,758.52 | 2,156,070.04 |
| Alınmış avanslar | | | |
| Dövlət büdcəsinə vergi öhdəlikləri | | | |
| Gələcək dövrün gəlirləri | | | |
| Sair kreditor borcları | | | |
| Digər qısamüddətli öhdəliklər | | | 6,000.00 |
| **CƏMİ QISAMÜDDƏTLİ ÖHDƏLİKLƏR** | **3,962,586.06** | **2,693,758.52** | **2,162,070.04** |
| **CƏMİ ÖHDƏLİKLƏR** | **3,962,586.06** | **2,693,758.52** | **2,162,070.04** |
| **CƏMİ KAPİTAL VƏ ÖHDƏLİKLƏR** | **5,789,499.54** | **4,633,612.06** | **4,160,855.68** |

## MƏNFƏƏT VƏ YA ZƏRƏR VƏ DİGƏR MƏCMU GƏLİRLƏR HAQQINDA HESABAT

**31 DEKABR 2020, 2021, 2022-Cİ İL BAŞA ÇATMIŞ İL ÜZRƏ AUDİT EDİLMİŞ "Ekolizinq"MƏHDUD MƏSULİYYƏTLİ CƏMİYYƏTİ MƏNFƏƏT VƏ ZƏRƏRLƏR HESABATI (xərclərin funksiyaları üzrə)**

**(Azərbaycan manatı ilə)**

| | **2020** |
|---|---|
| Əsas əməliyyat gəliri | 1,041,162.30 |
| Əməliyyat xərcləri | 779,829.69 |
| **Ümumi mənfəəti** | **261,332.61** |
| İnzibati xərclər | |
| Kommersiya xərcləri | |
| **Əməliyyat mənfəəti(zərəri)** | 261,332.61 |
| Sair əməliyyat gəlirləri | |
| Sair əməliyyat xərcləri | |
| **Vergitutmadan əvvəl mənfəət(zərər)** | **261,332.61** |
| Mənfəət vergisi | 52,266.52 |
| **Hesabat dövründə xalis mənfəət(zərər)** | 209,066.09 |

| | **2021** |
|---|---|
| Əsas əməliyyat gəliri | 894,989.00 |
| Əməliyyat xərcləri | 671,293.78 |
| **Ümumi mənfəəti** | **223,695.22** |
| İnzibati xərclər | |
| Kommersiya xərcləri | |
| **Əməliyyat mənfəəti(zərəri)** | 223,695.22 |
| Sair əməliyyat gəlirləri | |
| Sair əməliyyat xərcləri | |
| **Vergitutmadan əvvəl mənfəət(zərər)** | **223,695.22** |
| Mənfəət vergisi | 44,739.04 |
| **Hesabat dövründə xalis mənfəət(zərər)** | 178,956.18 |

| | **2022** |
|---|---|
| Əsas əməliyyat gəliri | 740,070.84 |

| | |
|---|---|
| Əməliyyat xərcləri | 639,501.27 |
| **Ümumi mənfəəti** | **100,569.57** |
| İnzibati xərclər | |
| Kommersiya xərcləri | |
| **Əməliyyat mənfəəti(zərəri)** | 100,569.57 |
| Sair əməliyyat gəlirləri | |
| Sair əməliyyat xərcləri | |
| **Vergitutmadan əvvəl mənfəət(zərər)** | **100,569.57** |
| Mənfəət vergisi | 20,113.91 |
| **Hesabat dövründə xalis mənfəət(zərər)** | 80,455.66 |

## KAPİTALDA DƏYİŞİKLƏR HAQQINDA HESABAT

## DEKABR 2020, 2021, 2022-Cİ İL BAŞA ÇATMIŞ İL ÜZRƏ AUDİT EDİLMİŞ

(Azərbaycan manatı ilə)

| Kapitalda dəyişikliklər | Nizamnamə | Bölüşdürülməmiş | Cəmi |
|---|---|---|---|
| **1 yanvar 2020-ci il tarixinə qalıq** | 10,000.00 | 1,607,847.39 | 1,617,847.39 |
| İl üzrə mənfəət | 0.00 | 209,066.09 | 209,066.09 |
| 2020-ci il üzrə cəmi məcmu gəlir | 0.00 | 209,066.09 | 209,066.09 |
| **31 dekabr 2020-ci il tarixinə qalıq** | 10,000.00 | 1,816,913.48 | 1,826,913.48 |
| | | | |
| **1 yanvar 2021-ci il tarixinə qalıq** | 10,000.00 | 1,816,913.48 | 1,826,913.48 |
| İl üzrə mənfəət | 0.00 | 178,956.18 | 178,956.18 |
| 2021-ci il üzrə cəmi məcmu gəlir | 0.00 | 178,956.18 | 178,956.18 |
| ödənilmiş dividendlər | | -66,016.12 | -66,016.12 |
| **31 dekabr 2021-ci il tarixinə qalıq** | 10,000.00 | 1,929,853.54 | 1,939,853.54 |
| | | | |
| **1 yanvar 2022-ci il tarixinə qalıq** | 10,000.00 | 1,929,853.54 | 1,939,853.54 |
| İl üzrə mənfəət | 0.00 | 80,455.66 | 80,455.66 |
| 2022-ci il üzrə cəmi məcmu gəlir | 0.00 | 80,455.66 | 80,455.66 |
| ödənilmiş dividendlər | | -21,523.56 | -21,523.56 |
| **31 dekabr 2022-ci il tarixinə qalıq** | 10,000.00 | 1,988,785.64 | 1,998,785.64 |

## PUL VƏSAİTLƏRİNİN HƏRƏKƏTİ HAQQINDA HESABAT

## 31 DEKABR 2020, 2021, 2022-Cİ İL BAŞA ÇATMIŞ İL ÜZRƏ AUDİT EDİLMİŞ

(Azərbaycan manatı ilə)

| | 2020 il | 2021 il | 2022 il |
|---|---|---|---|
| **Dövrün əvvəlinə qalıq** | ***161,461.27*** | ***99,380.02*** | ***52,725.08*** |
| **Mədaxil** | | | |
| Alınmş faizlər | 560,924.41 | 776,467.94 | 689,908.26 |
| Alinmış avanslar | 1,759,135.00 | 478,250.00 | 439,716.00 |
| Digər gəlirlər | 237,265.12 | 281,563.86 | 190,744.65 |
| Alınmış İstiqrazlar | 700,000.00 | 800,000.00 | 500,000.00 |
| Alınmış bank kreditlər | 340,375.00 | 680,400.00 | 935,650.00 |
| **Cəmi mədaxil** | **3,597,699.53** | **3,016,681.80** | **2,756,018.91** |
| **Məxaric** | | | |
| Satış məqsədi ilə qısa müddətlı investisiyalar | 1,083,456.00 | 563,700.00 | 364,500.00 |
| Qaytarılmış istiqrazlar | 800,000.00 | 800,000.00 | 600,000.00 |
| Ödənilmiş bank kreditlər | 1,101,186.00 | 1,149,699.69 | 1,379,261.57 |
| Ödənilmiş bank faizlər | 385,882.00 | 304,673.49 | 180,842.43 |
| Ödənilmiş vergilər | 180,050.00 | 76,724.89 | 78,449.43 |
| Əməyin ödənişləri | 100,526.21 | 83,598.88 | 95,773.71 |
| Dividendlərin ödənişlər | | 66,016.12 | 21,523.56 |
| Digər ödənişlər | 8,680.57 | 18,923.67 | 12,127.10 |
| Digər uzun müddətli investisiya | | 27,000.00 | 6,000.00 |
| **Cəmi məxaric** | **3,659,780.78** | **3,063,336.74** | **2,738,477.80** |
| **Dövrün sonuna qalıq** | ***99,380.02*** | ***52,725.08*** | ***70,266.19*** |

16.2. **Emitent bir ildən az müddətdə fəaliyyət göstərdiyi təqdirdə bu dövrü əhatə edən audit edilmiş maliyyə hesabatları:** emitent bir ildən çox müddət ərzində fəaliyyət göstərir;

16.3. **Emitent yeni yaradılmış hüquqi şəxs olduğu ilə əlaqədar maliyyə hesabatlarını tərtib edə bilmədiyi təqdirdə maliyyə hesabatlarının əvəzinə proforma maliyyə hesabatını təqdim etməlidir:** emitent yeni yaradılmış hüquqi şəxs deyil;

16.4. **Emitentin konsolidasiya olunmuş maliyyə hesabatı (olduqda):** Emitentin konsolidasiya olunmuş maliyyə hesabatı mövcud deyil;

16.5. **Emitent son audit edilmiş maliyyə hesabatlarının tarixindən etibarən rüblük və ya yarımillik maliyyə hesabatlarını dərc etdiyi təqdirdə onlar emissiya prospektinə daxil edilməlidir. Rüblük və ya yarımillik maliyyə hesabatları audit edildiyi təqdirdə hesabata audit rəyi əlavə edilməlidir. Rüblük və ya yarımillik maliyyə hesabatı audit edilmədikdə bu qeyd edilməlidir-** Emitentin rüblük və ya yarımillik maliyyə hesabatları dərc edilməmişdir. Audit edilməmiş yarımillik maliyyə hesabatları Baza Emissiya prospektinin 16.6-cı maddəsində açıqlanmışdır.

16.6. **MALİYYƏ VƏZİYYƏTİ HAQQINDA HESABAT**

**"Ekolizinq"MƏHDUD MƏSULİYYƏTLİ CƏMİYYƏTİNİN 2023-cü ilin ilk 6 ayı üzrə audit olunmamış hesabatları**

(Azərbaycan manatı ilə)

**BALANS HESABATI**

| | 2023 il 6 ay | 2022 il 6 ay |
|---|---|---|
| | 640,766.31 | 666,218.50 |

| | | |
|---|---|---|
| **AKTİVLƏR** | | |
| **Uzunmüddətli aktivlər** | | |
| Torpaq,tikili və avadanlıqlar | | |
| Nəqliyyat vasitələri | 90,332.35 | 55,022.04 |
| Digər əsas vəsaitlər | 15,840.60 | 12,934.70 |
| İştirakpayı metodu ilə investisiyalar | | |
| Qeyri maddi aktivlər | 11,447.40 | 12,719.34 |
| | | |
| **Qısamüddətli aktivlər** | | |
| Ehtiyyatlar | | |
| Qısamüddətli debitor borcları | | |
| Dövlət büdcəsinə (vergilər üzrə) | 12,252.24 | 37,127.43 |
| Sair debitor borcları | 2,759,248.12 | 2,698,235.19 |
| Pul vəsaitləri və onların ekvivavlentləri | 12,359.36 | 10,566.12 |
| Səhmlər üzrə qoyuluş | 634,040.00 | 632,500.00 |
| Gələcək dövrün xərcləri | | |
| Sair qısamüddətli aktivlər | | |
| Digər aktivlər | 17,563.00 | |
| **CƏMİ AKTİVLƏR** | **4,193,849.38** | **4,125,323.32** |
| | | |
| **KAPİTAL** | | |
| Ödənilmiş nominal (Nizamnamə)kapitalı | 10,000.00 | 10,000.00 |
| Xalis mənfəət | 2,058,756.92 | 1,969,988.66 |
| Bölüşdürülməmiş mənfəət (ödənilməmiş zərər) | | |
| **CƏMİ KAPİTAL** | **2,068,756.92** | **1,979,988.66** |
| | | |
| **Qısamüddətli öhdəliklər** | | |
| Qısamüddətli kreditor borclarıə | | |
| Bank kreditləri | 2,125,092.46 | 2,145,334.66 |
| Alınmış avanslar | | |
| Dövlət büdcəsinə vergi öhdəlikləri | | |
| Gələcək dövrün gəlirləri | | |
| Sair kreditor borcları | | |
| Digər qısamüddətli öhdəliklər | | |
| **CƏMİ QISAMÜDDƏTLİ ÖHDƏLİKLƏR** | **2,125,092.46** | **2,145,334.66** |
| **CƏMİ ÖHDƏLİKLƏR** | **2,125,092.46** | **2,145,334.66** |
| **CƏMİ KAPİTAL VƏ ÖHDƏLİKLƏR** | **4,193,849.38** | **4,125,323.32** |

## MƏNFƏƏT VƏ YA ZƏRƏR HAQQINDA HESABAT

**"Ekolizinq"MƏHDUD MƏSULİYYƏTLİ CƏMİYYƏTİNİN 2023-cü ilin ilk 6 ayı üzrə audit olunmamış hesabatları**

**(Azərbaycan manatı ilə)**

| | 2023 il 6 ay | 2022 il 6 ay |
|---|---|---|
| Əsas əməliyyat gəliri | 274,024.23 | 289,411.22 |
| Əməliyyat xərcləri | 186,560.13 | 239,242.32 |

| | | |
|---|---|---|
| **Ümumi mənfəəti** | **87,464.10** | **50,168.90** |
| İnzibati xərclər | | |
| Kommersiya xərcləri | | |
| **Əməliyyat mənfəəti(zərəri)** | 87,464.10 | 50,168.90 |
| Sair əməliyyat gəlirləri | | |
| Sair əməliyyat xərcləri | | |
| **Vergitutmadan əvvəl mənfəət(zərər)** | **87,464.10** | **50,168.90** |
| Mənfəət vergisi | 17,492.82 | 10,033.78 |
| **Hesabat dövründə xalis mənfəət(zərər)** | **69,971.28** | **40,135.12** |

**KAPİTALDA DƏYİŞİKLƏR HAQQINDA HESABAT**

**"Ekolizinq"MƏHDUD MƏSULİYYƏTLİ CƏMİYYƏTİNİN 2023-cü ilin ilk 6 ayı üzrə audit olunmamış hesabatları**

(Azərbaycan manatı ilə)

| Kapitalda dəyişikliklər | Nizamnamə | Bölüşdürülməmiş | Cəmi |
|---|---|---|---|
| | | | |
| **1 yanvar 2023-ci il tarixinə qalıq** | 10,000.00 | 1,988,785.64 | 1,998,785.64 |
| 6 ay üzrə mənfəət | 0.00 | 69,971.28 | 69,971.28 |
| 2023 -ci il 6 ay üzrə cəmi məcmu gəlir | 0.00 | 69,971.28 | 69,971.28 |
| ödənilmiş dividendlər | | 0.00 | 0.00 |
| **30 iyun 2023-ci il tarixinə qalıq** | 10,000.00 | 2,058,756.92 | 2,068,756.92 |
| | | | |
| | | | |
| | | | |
| **1 yanvar 2022-ci il tarixinə qalıq** | 10,000.00 | 1,929,853.54 | 1,939,853.54 |
| 6 ay üzrə mənfəət | 0.00 | 40,135.12 | 40,135.12 |
| 2022-ci il 6 ay üzrə cəmi məcmu gəlir | 0.00 | 40,135.12 | 40,135.12 |
| ödənilmiş dividendlər | | 0.00 | 0.00 |
| **30 iyun 2022-ci il tarixinə qalıq** | 10,000.00 | 1,969,988.66 | 1,979,988.66 |
| | | 2,058,854.14 | 78,865.48 |

**PUL VƏSAİTLƏRİNİN HƏRƏKƏTİ HAQQINDA HESABAT**

**"Ekolizinq"MƏHDUD MƏSULİYYƏTLİ CƏMİYYƏTİNİN 2023-cü ilin ilk 6 ayı üzrə audit olunmamış hesabatları**

(Azərbaycan manatı ilə)

| | 2023 il | 2022 il |
|---|---|---|
| Dövrün əvvəlinə qalıq | *70,266.19* | *70,266.19* |
| Mədaxil | | |

| | | |
|---|---|---|
| Alınmış faizlər | 235,044.26 | 297,143.58 |
| Alinmış avanslar | 273,050.00 | 155,560.00 |
| Digər gəlirlər | 37,265.12 | 61,911.15 |
| Alınmış İstiqrazlar | 100,000.00 | 500,000.00 |
| Alınmış bank kreditlər | 130,937.58 | 595,450.00 |
| **Cəmi mədaxil** | **776,296.96** | **1,610,064.73** |
| **Məxaric** | | |
| Satış məqsədi ilə qısa müddətlı investisiyalar | 295,468.00 | |
| Qaytarılmış istiqrazlar | 0.00 | 600,000.00 |
| Ödənilmiş bank kreditlər | 185,628.00 | 927,115.32 |
| Ödənilmiş bank faizlər | 174,564.32 | 84,968.80 |
| Ödənilmiş vergilər | 9,768.00 | 3,486.00 |
| Əməyin ödənişləri | 36,580.23 | 44,308.00 |
| Dividendlərin ödənişlər | | |
| Digər ödənişlər | 98,680.57 | 9,886.68 |
| Digər uzun müddətli investisiya | | |
| **Cəmi məxaric** | **800,689.12** | **1,669,764.80** |
| **Dövrün sonuna qalıq** | ***45,874.03*** | ***10,566.12*** |

**16.7. Emissiya propekti audit olunmuş son maliyyə hesabatından doqquz ay sonra hazırlanarsa bu zaman ən azı yarım illik aralıq audit edilmiş və ya audit edilməmiş maliyyə hesabatı prospektə əlavə edilməlidir. Aralıq maliyyə hesabatı əvvəlki maliyyə ilində eyni dövr üzrə müqayisəli hesabatla birgə tərtib edilməlidir-** Baza Emissiya propektinin 16.6-cı maddəsinə əlavə edilmişdir.

**16.8. Emitentin maliyyə vəziyyətinə və gəlirliliyinə təsir edən son bir il ərzində hüquqi proseslər barədə məlumat (həllini gözləyən proseslər də daxil olmaqla) :** Emitentin maliyyə vəziyyətinə və gəlirliliyinə təsir edən son bir il ərzində hüquqi proses mövcud deyil.

**16.9. Maliyyə hesabatlarının dərc edilməsindən sonra emitentin maliyyə vəziyyətində baş verən dəyişikliklər barədə məlumat**: Maliyyə hesabatlarının dərc edilməsindən sonra maliyyə vəziyyətində 2023-cü ilin ilk 6 (altı) ayı ərzində, 2022-ci ilin eyni dövrü ilə müqayisədə cəmi aktivlərin dəyərində 68,526.06 manat artım olmuşdur. Bundan əlavə Emitentin cari fəaliyyətində nəzərə çarpacaq dərəcədə dəyişiklik olmamışdır.

## 17. Emitent haqqında əlavə məlumatlar

**17.1. Emitentin nizamnamə kapitalı və onun tərkibi haqqında, o cümlədən nizamnamə kapitalının miqdarı, payların miqdarı, onların nominal dəyəri və növləri:** Nizamnamə Kapitalının ümumi məbləği 10 000 (on min) manat həcmindədir və hər biri 100 (bir yüz) manat olmaqla, 100 (bir yüz) paydan ibarətdir.

**17.2. Emitentin nizamnaməsi barədə aşağıdakı məlumat:** Emitentin Nizamnaməsinin son redaksiyası 11.03.2014-cü il tarixində AR İN yanında Dövlət Vergi Xidmətinin Milli Gəlirlər Baş İdarəsinin Hüquqi Şəxslərin Dövlət Qeydiyyatı İdarəsi tərəfindən dövlət qeydiyyatına alınmışdır.

**17.3. Fəaliyyət və məqsədlərin təsviri:** "Ekolizinq" Məhdud Məsuliyyətli

Cəmiyyəti Nizamnaməsində qeyd edilmiş fəaliyyət növləri ilə yanaşı, həmçinin, Azərbaycan Respublikasının qanunvericiliyi ilə qadağan edilməyən müxtəlif fəaliyyət növləri ilə məşğul ola bilər. Emitentin məqsədi- mənfəətin əldə edilməsi ilə yanaşı, peşəkar yanaşma və yüksək etibarlılıq sayəsində mikro kreditləşmə bazarında yüksək standartlara uyğun bir Şirkət olmaqdır.

**17.4. İdarəetmə və nəzarət orqanlarının salahiyyətləri barədə müddəaların icmalı:**

Emitentin ali idarəetmə orqanı onun iştirakçılarının ümumi yığıncağıdır. Cəmiyyətin iştirakçıların ümumi yığıncağının müstəsna səlahiyyətinə aşağıdakılar aiddir:

- cəmiyyətin nizamnaməsini və onun nizamnamə kapitalının miqdarını dəyişdirmək;
- cəmiyyətin icra orqanlarını yaratmaq və onların səlahiyyətlərinə vaxtından əvvəl xitam vermək;
- cəmiyyətin illik hesabatlarını və maliyyə hesabatlarını təsdiq etmək, onun mənfəətini və zərərini bölüşdürmək;
- cəmiyyətin yenidən təşkili və ya ləğvi haqqında qərar qəbul etmək;
- cəmiyyətin cəmiyyətin direktorlar şurası (və ya müşahidə şurası) və (və ya təftiş komissiyasını (müfəttişini) seçmək və onların səlahiyyətlərinə vaxtından əvvəl xitam vermək;
- Azərbaycan Respublikasının Mülki Məcəlləsinin 49-1.2-ci və 87.10-cu maddələrində nəzərdə tutulmuş əqdlərin bağlanması haqqında qərar qəbul etmək.

Direktorun funksiyaları-

Direktorun səlahiyyətlərinə aşağıdakılar aiddiar:

- Cəmiyyətin cari fəaliyyətinə rəhbərlik edir və onun operativ idarə olunmasını həyata keçirir;
- Vəkalətmə olmadan Cəmiyyətin adından öz səlahiyyəti daxilində çıxış edir, onun bütün dövlət hakimiyyəti və yerli özönüidarə orqanları, kommersiya və qeyri- kommersiya təşkilatları qarşısında, o cümlədən məhkəmələrdə iddiaçı və cavabdeh qismində təmsil edir;
- Ümumi yığıncaq tərəfindən qəbul edilmiş qərarların vaxtında və lazimi qaydada icra olunmasını təmin edir;
- Cəmiyyətin nizamnaməsi ilə nəzərdə tutulmuş digər səlahiyyətləri icra edir.

**17.5. Emissiya olunan qiymətli kağızlar baxımından qiymətli kağızlar barədə emitentin öhdəliklərini yerinə yetirmək qabiliyyətinə təsir edən emitentin əsas fəaliyyəti ilə bağlı olmayan müqavilələr barədə məlumat:** emitentin öhdəliklərini yerinə yetirmək qabiliyyətinə təsir edən emitentin əsas fəaliyyəti ilə bağlı olmayan müqavilələri mövcud deyil.

## 18. İstiqrazlar haqqında ümumi məlumat

**Əsas məlumatlar:**

**18.1. Qiymətli kağızların emissiyasını tənzimləyən qanunvericilik:** Azərbaycan Respublikasının Mülki Məcəlləsi, "Qiymətli kağızlar bazarı haqqında" Qanun, ləğv olunmuş Azərbaycan Respublikasının Qiymətli Kağızlar üzrə Dövlət Komitəsinin 27 yanvar 2016-ci il tarixli, 05 nömrəli Qərarı ilə təsdiq edilmiş "Emissiya prospekti və informasiya memorandumuna dair tələblər haqqında" Qaydalar və 27 yanvar 2016-ci il tarixli, 04 nömrəli Qərarı ilə təsdiq edilmiş "İnvestisiya qiymətli kağızlarına abunə yazılışı və yerləşdirilməsi haqqında" Qaydalar.

**18.2. Təklif olunan qiymətli kağızların reytinqi və bu reytinqə təsir edən amillər barədə məlumat:** Təklif olunan istiqrazların reytinqi mövcud deyil.

**18.3. İstiqrazların əldə edilməsi üçün məhdudiyyətlər (olduqda):** İstiqrazların əldə edilməsi üçün heç bir məhdudiyyət nəzərdə tutulmamışdır.

**18.4. İstiqraz üzrə gəlirlərdən mənbədə verginin tutulması barədə məlumat. İstiqraz üzrə gəlirlərdən mənbədən verginin tutulması barədə emitentin öhdəliyi:** İstiqrazlar üzrə faiz ödənişi zamanı qanunvericilikdə müəyyən edilmiş qaydada ödəmə mənbəyindən vergi tutulur. AR Vergi Məcəlləsinin 102.1.22-2-ci maddəsinə əsasən fiziki şəxslər 2023-cü il fevralın 1-dən etibarən 5 (beş) il müddətində kütləvi təklif və tənzimlənən bazarda ticarətə buraxılmış səhmlər və istiqrazlar üzrə ödənilən dividend, diskont (istiqrazların nominalından aşağı yerləşdirilməsi nəticəsində yaranmış fərq) və faiz (kupon) gəlirləri gəlir vergisindən azad olunmuşdur. İstiqrazların tədavüldə olduğu müddətdə vergi qanunvericiliyi dəyişərsə, tətbiq ediləcək vergilər barədə məlumat Emitent və ya anderrayter tərəfindən kütləvi informasiya vasitələri ilə investorların diqqətinə çatdırılacaqdır.

İstiqrazlar üzrə hüquqi şəxslərə ödəniləcək faizlər isə onlar tərəfindən vergitutma bazası hesablanarkən gəlir olaraq nəzərə alınaraq ümumi qaydada mənfəət vergisinə cəlb olunacaqdır.

**18.5. Potensial investorların müxtəlif kateqoriyaları barədə məlumat:** Emissiya ediləcək istiqrazlar həm fiziki həm də hüquqi şəxslər tərəfindən əldə edilə bilər.

## 19. İstiqrazlar haqqında məlumat

**19.1. İstiqrazların növü:** Faizli, təmin edilməmiş, sənədsiz, adlı istiqrazlar;

**19.2. Təklif edilən istiqrazların sayı və nominal dəyəri:**

Təklif edilən istiqrazların emissiyası ümumilikdə 2 buraxılışda olmaqla aşağıda qeyd olunan buraxılışlarla həyata keçiriləcək:

1-ci buraxılış üzrə 250000 (iki yüz əlli min) ABŞ dolları həcmində, 36 ay, illik 10%;

2-ci buraxılış üzrə 250000 (iki yüz əlli min) ABŞ dolları həcmində, 36 ay, illik 10%;

Hər bir buraxılış həmin buraxılışa aid müvafiq Yekun Şərtlərlə müşayiət olunacaqdır.

Mövcud olan istiqrazlar:

100 (bir yüz) ədəd, 1000 (bir min) manat (AZ2007019501)

500 (beş yüz) ədəd, 1000 (bir min) manat (AZ2006019502)

**19.3. İstiqrazların valyutası:** ABŞ dolları;

**19.4. İstiqrazlarla təsbit olunan hüquqlar, onların həyata keçirilmə qaydası və onlara dair məhdudiyyətlər:**

- İstiqraz mülkiyyətçilərinin aşağıdakı hüquqları vardır:
- İstiqrazların tədavül müddətinin sonunda istiqrazın nominal dəyərini Emitentdən almaq;
- İstiqrazın nominal dəyərindən istiqrazın illik faizi həcmində istiqrazların tədavül müddəti ərzində faiz gəliri almaq;
- Emitentin ləğvi, yaxud emitentin kreditorlarının tələblərinin ödənilməsinin təminatına real təhlükəyə səbəb olan onun yenidən təşkili barədə qərar qəbul edildikdə, habelə Emitent müflis elan olunduqda İstiqrazların nominal dəyərinin və həmin anadək hesablanmış, lakin ödənilməmiş faizlərin vaxtından əvvəl ödənilməsini Emitentdən tələb etmək;
- Azərbaycan Republikasının qanunvericiliyində nəzərdə tutulmuş digər hüquqlar.
- İstiqrazlarla təsbit olunan məhdudiyyətlər nəzərdə tutulmayıb.

**19.5. Faiz və əsas borcun ödənilməsi ilə bağlı iddia müddəti:** Əsas borc və faizin

ödənilməsi ilə bağlı iddia müddəti Azərbaycan Respublikasının Mülki Məcəlləsinin 372-384-cü maddələri ilə tənzimlənir.

19.6. **İstiqrazlar üzrə ödənilməli faizlər:** İstiqrazların 1-ci buraxılışı üzrə illik faiz dərəcəsi - 10 (on) faiz, 2-ci buraxılışı üzrə illik faiz dərəcəsi 10 (on) faiz təşkil edir.

19.7. **Faiz dərəcəsi müəyyən olunmadığı halda istiqrazın faiz dərəcəsinin hesablanması üsulu:** İstiqrazlar üzrə illik faiz dərəcəsi 10 (on) faiz təşkil edir.

19.8. **Bazarda baş verən hadisələrin istiqrazların baza aktivinə (olduqda) və istiqrazlar üzrə hesablaşmalara mənfi təsiri barədə məlumat. Belə halların tənzimlənməsi qaydaları və ya prosedurları:**

"Ekolizinq" MMC əsasən maliyyə lizinq bazarında fəaliyyət göstərir.

Hazırki dövrdə lizinq təşkilatlarına əsas təsir edən tendensiyalar valyuta riskləri və portfel keyfiyyəti "Ekolizinq" MMC -də qənaətbəxş idarə olunur. Belə ki təşkilatın portfelində prospektin hazırlandığı tarixə valyuta riski yaradacaq kreditlər yoxdur və kredit portfeli milli valyutada formalaşdırılmışdır.

19.9. **Təmin edilmiş istiqrazlar təklif olunduqda təminatın dəyərinin istiqrazların və onlar üzrə faizlərin ödənişinə təsiri barədə aydın və ətraflı məlumat:** İstiqrazlar təmin edilməmiş formada təklif olunur.

19.10. **İstiqrazların geri satın alınmasının şərtləri:** Tədavül müddəti ərzində istiqrazlar emitent ilə investor arasında qarşılıqlı razılıq əasında geri satın alına bilər.

19.11. **Gəlirlilik dərəcəsi və onun hesablanması qaydası:** İstiqrazların 1-ci və 2-ci buraxılışları üzrə faiz gəlirinin məbləği aşağıda göstərilən düsturla müəyyən edilir:

TF=(N*D*G/360)/100 Burada,

TF- Bir istiqraz üzrə toplanmış faizlər;

N- Bir İstiqrazın nominal dəyəri -1000 (bir min) ABŞ dolları;

D- İstiqrazların illik gəlirlik dərəcəsi -10 (on)%;

G-istiqrazların faiz ödəniş dövrünün müddəti - 30 gün.

19.12. **İnvestorları təmsil edən təşkilat barədə (olduqda) məlumat:** İnvestorları təmsil edən təşkilat mövcud deyil.